# “Sərgüzəşti-vəziri-xani-Lənkəran” tamaşası nümayiş etdirilib



Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı Qəbələ Mədəniyyət Mərkəzində Mirzə Fətəli Axundzadənin “Sərgüzəşti-vəziri-xani-Lənkəran” (Lənkəran xanının vəzirinin sərgüzəştləri) komediyasının tamaşasını nümayiş etdirib.

Tamaşanın quruluşçu rejissoru xalq artisti Cənnət Səlimovadır. Səhnə əsərinin musiqi tərtibatı xalq artisti Cavanşir Cəfərova, rəqslərin quruluşu Zakir və Leyla Ağayevlərə məxsusdur.



Xarakterlər komediyası olan tamaşada rolları əməkdar artistlər Nofəl Vəliyev, Şövqi Hüseynov, Seyidşah Məmmədov, Gülər Nəbiyeva, Lətifə Əliyeva, aktyorlar Zülfiyyə Alhüseynova, Aydın Dəmirov, Şəbnəm Hüseynova, Kərəm Hadızadə, Vüsal Mehrəliyev oynamışlar.

Tamaşa qəbələli teatrsevərlərə xoş anlar bəxş etmişdir.

✍ **Anar RÜSTƏMLİ,**
**teatrşünas.**

# Narkomaniya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Günü

Müasir dövrümüzdə bəşəriyyət üçün böyük təhlükə olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Narkotik maddələr insan sağlamlığına bərpaedilməz ziyan vurur, insanın fiziki qüvvəsini tükəndirir, bədənin çəkisi bir-dən-birə azalır, orqanizmdə ümumi zəhərlənmə baş verir. Narkomaniya eləcə də yoluxucu xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni şprisdən istifadə edildiyindən onların arasında QİÇS və başqa xəstəliklərə tutulma ehtimalları daha çoxdur. Narkotik maddə alverçiləri heroinə, kokainə yuyucu toz və ya şəkər tozu qatıb satırlar, ona görə narkomanlarda şəkər diabeti də tez inkişaf edir. Ən dəhşətlisi odur ki, narkotikdən istifadə zamanı bir neçə dəqiqə ərzində beyin zədələnə və bununla da insanda ömürlük şikəstlik əmələ gələ bilər. Belə halda adam düşünmək, hərəkət etmək, reaksiya vermək qabiliyyətini itirir, danışmaq və müxtəlif əşyalardan istifadə etmək imkanından məhrum olur. Narkotik maddələrin gənc nəsil arasında yayılması təhlükəsini nəzərə alaraq, bir çox ölkələr "Narkotiksiz gələcək naminə" milli proqramlar qəbul edir, təhsil ocaqlarında, hüquq mühafizə orqanlarında, təşkilatlarda narkomaniyanın ziyanı haqqında maarifləndirmə kampaniyaları keçirirlər. Bu kampaniyalar kütləvi informasiya vasitələri, o cümlədən internet şəbəkəsi ilə işıqlandırılır. Narkomaniya ilə bağlı problemləri daim ictimaiyyətin nəzarəti altında saxlamaq məqsədilə BMT iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan etmişdir.

**“Qəbələ”**

# 26 İyun–Silahlı Qüvvələr Gününə həsr edilmiş sərbəst güləş üzrə Qəbələ Açıq Birinciliyi

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə yeniyetmələr arasında sərbəst-güləş üzrə 26 İyun—Silahlı Qüvvələr



Gününə həsr edilmiş Qəbələ Açıq Birinciliyi keçirilmişdir. İyunun 23-də Qəbələ Olimpiya İdman Kompleksində baş tutan yarışa Qəbələ, Ucar, Ağdaş, Göyçay rayonlarından olan 100-dək idmançı qatılmışdır.

Yarışın keçirilməsində məqsəd 26 İyun—Silahlı Qüvvələr Gününün yaranma tarixini ictimaiyyətə çatdırmaq, həmçinin rayonda idmanın kütləviliyinə və sərbəst güləş növünün yeniyetmələr arasında təbliğinə nail olmaq, yeniyetmə və gənc idmançılarda yarış təcrübəsini və ustalığını inkişaf etdirmək olmuşdur.

Açılış mərasimində gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov yarışın məqsəd və vəzifələri haqqında məlumat vermiş, idmançıları 26 İyun—Silahlı Qüvvələr Günü münasibəti ilə təbrik etmiş, onlara uğurlar arzulamışdır. O, qeyd etmişdir ki, bu gün bizim Milli Ordumuz müstəqil Azərbaycanın təhlükəsizliyin və dövlətimizin ərazi bütövlüyünün tam təminatçısıdır. Natiq bildirmişdir ki, ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyilə ordu quruculuğu sahəsində aparılan uğurlu islahatlar nəticəsində silahlı qüvvələrimiz bu gün Qafqazda ən güclü müdafiə potensialına malik olan ordu kimi formalaşmışdır.

Açılış mərasimindən sona meydan birincilik uğrunda mübarizəyə başlayan güləşçilərin ixtiyarına verilmişdir. Yarışda iki yaş qrupunda 11 çəki dərəcəsi üzrə 100-dək yeniyetmə gücünü sınamışdır. Yarışın idarə olunması Azərbaycan Güləş Federasiyasının qaydaları əsasında rayon gənclər və idman idarəsi tərəfindən təsdiq edilmiş hakimlər heyətinə həvalə edilmişdir.

Gərgin idman mübarizəsi şəraitində keçən birinciliyin yekununda I, II, III yeri tutmuş qaliblərə gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

✍ **Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Kompüter oyunları üzrə rayon çempionatı

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə gənclər arasında kompüter oyunları üzrə Qəbələ çempionatı keçirilmişdir. Çempionatda yarışlar “Fifa” və “Point” oyunları üzrə təşkil edilmişdir. Müxtəlif istiqamətlərdə çalışan və təhsil alan 25 nəfər gənc yarışda gərgin idman mübarizəsi aparıb.

Belə bir tədbirin təşkilində əsas məqsəd kiber idmanı rayonda populyarlaşdırmaq, həmçinin gənclərin müasir informasiya-kommunikasiya texnologiyalarına və kompüter texnikasına marağını artırmaqdan ibarətdir.

Oyunların tərkibində zehni inkişaf etdirmək, alternativ vəziyyətlərdə nə edə bilmək imkanları vardır ki, bu da gənclərdə qərar vermək mədəniyyətini formalaşdırır.



Çempionatın açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov yarışın məqsəd və vəzifələri haqqında məlumat vermişdir.

Rayon çempionatında “Fifa” oyunu üzrə Nəriman Mahmudzadə I yerə, Orxan Əliyev II yerə və Fuad Məmmədov III yerə layiq görülmüşlər. “Point” oyunu üzrə isə Məhəmməd Qafarov I yeri, Nihad Mirzəyev II yeri və Nurlan Həsənov III yeri tutmuşlar.

Qaliblərə gənclər və idman idarəsinin diplom və hədiyyələri təqdim edilmişdir. Onlar kompüter oyunları üzrə Azərbaycan çempionatının zona yarışında iştirak etmək hüququ əldə etmişlər.

✍ **Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Kənd təsərrüfatı xəbərləri

**BÖYÜK ƏMİLİ.** Redaksiyamıza verilən məlumata görə kənd sakinləri tərəfindən 4 hektar ərazidə tütün şitilləri əkilib. Hazırda tütün sahələrində qızğın becərmə işləri gedir.

Ailə fermer təsərrüfatının rəhbəri Aydın Mirzəyev isə 150 qram ipək qurdu bəsləyir. Onun sözlərinə görə işlərin gedişi yaxşı keyfiyyətli barama istehsal olunacağına əsas verir.

Əhalinin əsas məşğuliyyətlərindən biri də heyvandarlıq olduğuna görə, qışlama dövrü üçün kənddə yem ehtiyatının toplanılması işlərinin də qızğın vaxtıdır.

**QUŞLAR.** Kənddə əkinçilik, maldarlıq, tərəvəzçilik və uzumçülük aparıcı kənd təsərrüfatı sahəsi olduğuna görə indi mövsümi işlərin gərgin vaxtıdır.

Quşlarlıların çoxu üzüm plantasiyalarında becərmə işləri ilə, digərləri isə taxılçılıq, tərəvəzçilik və kümçülüklə məşğuldurlar. Onlar becərdikləri sahələrdən bu il bol məhsul gözləyirlər.

Eyni zamanda kifayət qədər yaşıl kütləsi olan biçənəklərdə ot toplanması işləri də gedir.

**KÜRD.** Ərazidə arpa biçininə başlanılmışdır. Sahibkarların dediklərinə görə zəmilərdən bu ilə olan gözləntiləri onları qane edir. Digər kəndlərimiz kimi kürdlülər də bu il tut yarpağından “atlas” istehsalına başlamış, yüksək keyfiyyətli barama yetişdirmişlər. Onlar çoxdan unudulmuş, lakin gəlirli sahə hesab olunan kümçülüyün növbəti illərdə daha da genişləndirilməsini nəzərdə tuturlar.

Kənddə hazırda mal-qara üçün ot və küləş tədarükü işlərinə başlanılmışdır.

**MƏLİKLİ.** Aldığımız məlumata görə Məliklidə də taxıl biçininə start verilmişdir. Yerli sahibkarların dediklərinə görə zəmilərdən yüksək məhsuldarlıq gözlənilir. Havaların əlverişsiz keçməsi işin gedişinə bir qədər təsir göstərsə də fermerlər yetişdirdikləri məhsulun itkisiz yığılmasına çalışırlar.

**“Qəbələ”**